# Mədəniyyətimizə böyük şöhrət gətirən dahi bəstəkar

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Layihə çərçivəsində**

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**

**Mahnı hamımızın sevdiyi musiqi növüdür. O, təbiət etibarı ilə demokratik bir janrdır. Əbəs deyildir ki, ürəyə yatımlı hər hansı bir mahnı sərhəd tanımır, tez bir zamanda el-dən-elə yayılır. Bizim istər xalq, istərsə də bəstəkarlar tərəfindən yazılmış mahnılarımız çoxdur.**

Mahnı yazan bəstəkarlarımızdan söz düşəndə respublikanın Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Səid Rüstəmovun adı həmişə ön planda çəkilir. Onun şirin, lirik, ürəyəyatımlı nəğmələri təkcə respublikamızda deyil, xarici ölkələrdə belə ifa olunur, bəstəkara və musiqimizə şöhrət gətirir. Ümumiyyətlə, S.Rüstəmovun bu sahədə böyük xidmətləri var desək, tamamilə doğru olar. Dahi bəstəkarın Azərbaycan musiqisinin inkişafında və təbliğində rolu danılmazdır.

### Mahnı ruhun qidasıdır

Hər şeydən əvvəl həm xalq musiqisini, həm də şifahi ənənəli professional musiqini dərindən, bütün incəliklərinə qədər bilən S.Rüstəmov bu saf bulaqdan bütün yaradıcılığı boyu öz istedadı çərçivəsində istifadə etmiş, nəticədə keyfiyyətcə yeni, orjinal əsərlər yazmağa müvəffəq olmuşdur. Heç də təsadüfi deyil ki, bəstəkar iri həcmli əsərlərinə görə deyil, kiçik həcmli mahnılarına görə Dövlət mükafatına layiq görülmüşdür. Onun qiymətləndirilən dörd mahnısının hər biri həyatımızın müxtəlif sahələrini əks etdirir. Məsələn, "Süreyya" zəhmət adamına, "Mən sülhə səs verirəm" əmin-amanlıq uğrunda mübarizəyə, həsr edilib.

S.Rüstəmovun mahnıları təkcə yuxarıda qeyd etdiyimiz mövzularla bitmir. O, çoxlu miqdarda lirik mahnıların da müəllifidir. Saf məhəbbətə, doğma və tənə həsr olunan, "Bənövşə", "Gəlmədi", "Hardasan", "Həkim qız", "Getmə, getmə", "Qurban adına", "Şeir deyilmi" yarandığı gündən bu vaxta qədər öz şöhrətini qoruyub saxlayır.

Mübağiləsiz demək olar ki, bəstəkar mövzusundan asılı olmayaraq musiqi aləminə yeni töhvə bəxş edib. Bunun üçün də biz S.Rüstəmovun mahnılarını dinlədikdə xüsusi zövq alırıq.

### İllərin bəhrəsi

Səid Rüstəmov musiqi səhnəsinə ilk dəfə tar çalan kimi gəlmiş və bu sənətin sirlərini ilk dəfə Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovdan mənimsəmişdi. O, bəstəkarın yetirməsi olmaqla yanaşı, onun Azərbaycan xalq çalğı alətləri orkestri üzrə həm də yaxın köməkçisi olub. Belə ki, 1931-ci ildə Müslüm Maqomayevin təşəbbüsü ilə Ü.Hacıbəyov Azərbaycan radio komitəsinin notlu xalq çalğı alətləri orkestrini yaratdıqda Rüstəmov əvvəl kollektivin konsertmeysteri, 3 il sonra isə bədii rəhbəri və baş drijoru olub. Kollektivə rəhbərlik etdiyi 40 il ərzində orkestr böyük uğurlar qazanıb. Eyni zamanda o, musiqi dünyamı-za bir-birindən gözəl yaradıcılar bəxş edib.

### Drijorun ərməğanı

Əgər əvvəl orkestr xalq musiqisinin, muğam işləmələrinin eləcə də, Ü.Hacıbəyovun və M.Maqomayevin əsərlərini ifa edirdisə, sonralar bilavasitə S.Rüstəmovun əməli işi sayəsində orkestrin repertuarı dünya musiqi klassiklərinin məşhur əsərləri ilə zənginləşir. Qeyd edək ki, azərbaycanlıların əksəriy-yəti Motsartın, Şubertin, Mendelsonun, Bizenin, Qilinkonun, Çaykovskinin və başqa klassik bəstəkarların əsərləri ilə məhz ilk dəfə bu orkestrin vasitəsi ilə tanış olublar. Bu baxımdan onu demək olar ki, Şərq musiqi tarixində klassik populyar simfonik əsərləri xalq çalğı alətləri orkestri üçün orkestləşdirib ifa etdirən ilk dəfə S.Rüstəmov olub.

### Yaradıcı axtarışında

Eyni zamanda Rüstəmov Azərbaycan bəstəkarlarının orjinal əsərlərinə də müntəzəm olaraq müraciət edib. A.Rzayeva, H.Xanməmmədov, A.Gəray, X.Cəfərov, A.Məlikov, D.Dadaşov və başqaları bu orkestr üçün yazdıqları iri və xırda həcmli əsərlərlə ilkin olaraq şöhrət tapıb, sə-nətdə sözlərini deyiblər. Onu da qeyd edək ki, yüksək bədii zövqə malik olan S.Rüstəmov, ancaq səviyyə etibarı ilə yüksək professional əsərlərə drijorluq edirdi.



### Parlayan istedad

1930-cu illərdə bəstəkarlığa başlayan Səid Rüstəmovun ilk əsəri xalq çalğı orkestri üçün yazdığı "Bayatıkürd" muğamı əsasında fantaziya olub. Bunun ardınca "Cəngi", "Qəhrəmani" əsərlərinin ifasında ilk dəfə olaraq zurnadan və qoşanağaradan istifadə edib. Bu əsərlərin arasında "Azərbaycan" suitası maraqlı musiqi lövhələri ilə illərdir ki, dinləyicilərin qəlbini riqqətə gətirir. Bəstəkarın tar ilə xalq çalğı alətləri orkestri üçün yazdığı "Konsert" - əsəri müəllifə böyük şöhrət gətirərək musiqi texnikumlarında, ali musiqi məktəblərində tədris proqramına daxil edilib. Elə bir tar ifaçısı tapılmaz ki, bu əsəri ifa edib sevməsin.

### Əsil sənət ölmür

S.Rüstəmovun orkestri 1938 və 1959-cu illərdə Moskvada keçirilən Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüklərinin iştirakçısı olub. Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasını xalq çalğı alətləri orkestrinin ifasında moskvalılara təqdim etməsi onun təqdirəlayiq işlərindəndir. Bütün bunlarla yanaşı, bəstəkar dram tamaşaları olan "Hacı Qara", "Vaqif", "Almas", "Bahar suları" və başqa əsərlərin musiqisini bəstələmişdi. Səid Rüstəmov "Beş ma-natlıq gəlin", "Durna", "Rəi-sin arvadı" adlı musiqili komediyaların müəllifidir. Təkcə Azərbaycanda deyil, hətta Orta Asiya respublikalarının səhnələrində də göstərilən "Beş manatlıq gəlin" əsəri böyük tamaşaçı məhəbbəti qazanmışdır. "Durna" musiqili komediyasından parçalar bu gün də rəsmi gecələrdə, açıq konsertlərdə, mavi ekranda göstərilir.

Bəstəkarın bu uğurlarını sənət dostu Tofiq Quliyev belə səciyyələndirib: "Məncə S.Rüstəmovun uğurlarını, onun istedadını təbiiliyində, səmimiliyində, dərin xəlqiliyində, geniş milli koloritə malik olmasında axtarmaq lazımdır". Doğrudan da bu sözlərdə böyük həqiqət var.

### Nəsillərə yadigar

S.Rüstəmovun yaradıcılıq fəaliyyətinin bir mühüm sahəsini də musiqi folklorçuluğu təşkil edir. O, Bülbülün rəhbərliyi ilə Azərbaycan Dövlət Konservatoriyasında yaradılmış xalq musiqisi üzrə elmi-tədqiqat kabinetinin işində fəal iştirak edir, aşıq musiqisini, xalq mahnı və rəqs nümunələrinə not yazmağa başlayır. Bunun nəticəsidir ki, onun not yazısı ilə 30-cu illərdə dörd dəftərdən ibarət aşıq havaları və C.Qaryağdıoğlunun ifasından nota köçürdüyü 50 "Azərbaycan xalq mahnısı" məcmuələri meydana gəlib. 1954 və 1957-ci il-lərdə çap olunmuş iki cildlik "Azərbaycan xalq mahnıları" məcmuələrinə də S.Rüstəmovun nota yazdığı xalq mahnıları daxil edilmişdir. 60-cı illərdə isə "Azərbaycan xalq mahnıları" və "Azərbaycan xalq rəngləri" toplusu çapdan çıxıb.

### Azərbaycandan dünyaya

S.Rüstəmov dəfələrlə Bakı şəhər sovetinə deputat seçilib. Və bu illərdə zəhmətkeşlərin mədəni həyat səviyyəsinin yüksəlməsi naminə yorulmadan çalışırıb. O, SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü kimi də geniş, məqsədyönlü iş aparıb. Onun səsi-sorağı beynəlxalq konqreslərdən ən mötəbər məclislərdən gəlirdi. O, dəfələrlə xalq çalğı alətləri ifaçıları üçün keçirilən ümumdünya və ümumittifaq festivallarında münsiflər heyətinin sədri və üzvü olub.

### Təqdirəlayiq dəyər

Böyük sənət fədaisi, alovlu vətənpərvər Səid Rüstəmovun geniş, çoxcəhətli fəaliyyəti gərgin əməyi layiqincə qiymətləndirilib. O, 1938-ci ildə Əməkdar incəsənət xadimi, 1957-ci ildə isə Azərbaycan Respublikasının Xalq artisti fəxri adlarına, 1951-ci ildə isə SSRİ Dövlət mükafatına layiq görülüb.

### Nümunəvi pedaqoq

S.Rüstəmov, həmçinin 30-cu illərdən başlayaraq, əvvəl Bakı musiqi texnikumunda, sonrakı illərdə ADK-da tar ixtisası dərsi vermişdi. O, bu sahədə professor adını alan ilk mütəxəssisdir. Onun tələbələrə lazım olan dərsliklərin yazılmasında böyük qayğısı olmuşdur. 1935-ci ildə ilk dəfə "Tar məktəbi" adlı kitabı bu sahədə çalışanların ən lazımlı vəsaitidir.

Görkəmli bəstəkar, istedadlı dirijor, gözəl pedaqoq Səid Rüstəmovun yaradıcılığı və hərtərəfli fəaliyyəti musiqi tariximizin şanlı səhifəsini təşkil edir. O, qədir bilən xalqımızın ürəyində sevimli mahnı ustadı kimi daim yaşamaqdadır.

*Elnurə İSAXAN*